# Su hövzələrində insanların təhlükəsizliyi vacib məsələdir





4 iyun 2015-ci il tarixində Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-qərb Regional Mərkəzinin təşkilatçılığı ilə Dövlət Sularda Xilasetmə Xidmətinin məsul işçilərinin iştrakilə Qəbələ Rayon İcra Hakimiyyətində "Su hövzələrində insanların təhlükəsizliyinin təmin edilməsi, mövcud problemlərin müzakirəsi və birgə həlli yolları" mövzusunda müşavirə keçirilmişdir.

Müşavirəyə rayon polis şöbəsinin əməkdaşları, səhiyyə işçiləri, şəhər, qəsəbə və kəndlərin inzibati ərazi üzrə nümayəndələri, bələdiyyə sədrləri və gigiyena-epidemiologiya mərkəzinin mütəxəssisləri dəvət olunmuşlar. Tədbirdə Regional Mərkəzin və Dövlət Sularda Xilasetmə Xidmətinin əməkdaşları Qəbələ rayonu ərazisində yerləşən su hövzələrində aparılan monitorinqlərin ümumi nəticələrindən, yay çimərlik mövsümündə su hövzələrində insanların təhlükəsizliyinin qorunması, təhlükəli hadisələr zamanı insanların axtarışının və xilasının səmərəli şəkildə təşkili istiqamətində məqsədyönlü işlərin daim davam etdirilməsi, baş verə biləcək hadisələrin qarşısının alınmasında təbliğatın rolu, və s. mövzularda çıxış etmişlər. Sonra rayon polis şöbəsinin, gigiyena-epidemiologiya mərkəzinin əməkdaşlarının da mövzuya uyğun çıxışları dinlənilmişdir.

Müşavirədə iştirak edən Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov müzakirə olunan məsələnin aktuallığını qeyd etmiş, su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması üçün aidiyyatı təşkilatların, vəzifəli şəxslərin məsuliyyətinin artırılmasının vacibliyini vurğulamışdır.

Daha sonra, su hövzələrində istirahət zamanı təhlükəsizlik qaydaları haqqında sənədli film izlənilmişdir. Tədbirin sonunda müşavirə iştirakçılarına çimərlik ərazilərində təhlükəsizlik qaydaları haqqında bukletlər paylanılmış, mövzu ilə bağlı suallar cavablandırılmışdır.

**FHN Şimal-qərb Regional Mərkəzinin ictimaiyyətlə əlaqə və təbliğat sektoru.**
**Fotolar S. Umuyevindir.**

# Meliorasiya işçilərinin peşə bayramında

İyun ayının 5-də Qəbələ Suvarma Sistemləri İdarəsinin kollektivi Su Təsərrüfatı və Meliorasiya İşçiləri Günü peşə bayramlarını qeyd etmək üçün ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsi önünə gəldilər. Abidə önünə tər gül dəstələri düzərək ulu öndərin xatirəsini yad etdilər. Mərasimdə Qəbələ Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Abil Ağasəfov iştirak etmişdir.



Kollektiv tədbiri suvarma sistemləri idarəsində davam etdirmişdir. Yığıncağı suvarma sistemləri idarəsinin rəisi Qüdrət Həmidov giriş sözü ilə açmış, respublika Meliorasiya və Su Təsərrüfatı ASC-nin keçdiyi yoldan, respublikamızda görülən işlərdən, meliorasiya işçilərinə göstərilən dövlət qayğısından söhbət açmışdır. Çıxışına davam edən natiq Qəbələ Suvarma Sistemləri İdarəsinin ötən il və bu ilin beş ayında gördüyü işlərdən danışmışdır.

**Oqtay MƏMMƏDOV.**
**Foto S. Umuyevindir.**

# Qurtuluş Günü– əsrə bərabər 22 il

(Əvvəli 3-cü səhifədə).

Artıq insanlar bu cür xəbərlərə öyrəşmişdilər. Hava qaraldıqdan sonra zülmətə qərq olmuş, insanlar gözə dəyməyən Bakı və digər şəhərlər boş küçələri, xəyal şəhərini xatırladırdılar. Hər tində dolaşan, əyninə yarı hərbi, yarı mülki törtöküntü paltar geymiş, üzü tüklü çiyni avtomatlı, bəzən qumbaraatanlı insanların hansı təşkilata mənsubluğunu ayırd etmək mümkün deyildi.

Yaşayış məntəqələrindəki bu zülmət, silahların bu görkəmi qorxu və xaosu daha da artırırdı. Ölkə idarə olunmurdu. Belə bir vaxtda Gəncədə hərbi hissələrdən birinin hökümətə qarşı qiyama qalxdığı xəbəri ildırım sürətilə yayıldı. Qiyama AXC—müsavat hökuməti tərəfindən çox böyük titullara və rütbələrə—Milli Qəhrəman, Dağlıq Qarabağ üzrə Prezidentin səlahiyyətli nümayəndəsi, Dağlıq Qarabağ istiqaməti üzrə qoşunların komandanı, polkovnik və sair kimi rütbələrə layiq görülüb populyarlaşdırılmış Surət Hüseynov rəhbərlik edirdi. Açıq etiraf etmək lazımdır ki, Surət Hüseynovun rəhbərliyi ilə hökumətə qarşı üsyan əhali tərəfindən birmənalı qarşılanmırdı. Xaos, anarxiya və özbaşınalıqdan doymuş əhalinin bir hissəsi bu üsyana ümidlə baxırdı.

Müdrik xalqımız bütövlükdə xaosun, özbaşınalığın nəticəsi olan bu üsyanın da vəziyyəti daha da gərginləşdirməməsinin qarşısını almaq üçün ədalətli qərar verdi. Hakimiyyətə Heydər Əliyev gəlməli, ölkəni bu vəziyyətdən qurtarmalıdır. Bu, yararsız iqtidarın qarşısına xalqın qoyduğu təkidli və vazkeçilməsi mümkün olmayan tələb idi. Əks təqdirdə Azərbaycan məhv ola bilərdi. Xalqın təkidli tələbləri qarşısında başqa çıxış yolu olmadığını görən Azərbaycan rəhbərliyi Heydər Əliyevi Bakıya dəvət etdi. 1993-cü ilin iyun ayının 9-da Heydər Əliyev Bakıya gəldi. Vaxtilə onun Bakıya gəlişinə hər cür əngəl törədənlər indi onun pişvazına çıxmışdılar. Buna baxmayaraq AXC—Müsavat hakimiyyətindəki bəzi qaynarbaşlılar-İsgəndər Həmidov, Arif Hacıyev, Fəhmin Hacıyev, İbrahim İbrahimli, Fərəc Quliyev və s. kimiləri Heydər Əliyevi bir növ M. F. Axundovun məşhur "Aldanmış kəvakib" hekayəsindəki Yusif Sərrac rolunda görməyi düşünürdülər. Belə ki, onların fikrincə Heydər Əliyev sadəcə Surət Hüseynov qiyamını yatırmalı, hakimiyyətdə isə əsl söz sahibi olmalı deyildi. Ancaq, həmin adamlar Heydər Əliyevin dünyada az-az yetişən dahi bir siyasət adamı olduğunu unudurdular. Heydər Əliyev bilirdi ki, naşı adamlarla hakimiyyəti bölüşdürmək ancaq uğursuzluğa apara bilər. Ancaq öz gücünə və xalqa arxalanmaq müvəffəqiyyət gətirə bilər. Heydər Əliyev xalqa arxalanaraq topun, tüfəngin qarşısına sözlə, məntiqlə ağlın zəkanın gücü ilə çıxdı. Böyük məharətlə qardaş qanı tökməyə hazır olan hər iki tərəfi tərkisilah etdi. Ulu öndər Heydər Əliyevin sərkərdə səriştəsi və komandan qətiyyəti ölkəmizi parçalanmaqdan, məhv olmaqdan xilas etdi.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbilə Azərbaycanda hakimiyyətə ikinci dəfə gəldiyi 15 iyun 1993-cü il xalqın əsil qurtuluşu oldu.

O dəhşətli günlərdən 22 il keçir. Tarix üçün elə böyük zaman deyil. Bu 22 ildə Azərbaycanın keçdiyi inkişaf yolunu bəlkə də 220 ilə sığışdırmaq olar. 22 il öncə insanların qorxa-qorxa çıxdığı Bakıda bu gün 50-dən artıq Avropa ölkəsinin bayrağı dalğalanır. Minlərlə idmançı bu inkişaf etmiş, sakit, sabit, təhlükəsiz şəhərdə öz məharətlərini göstərir. On minlərlə xarici qonaq tam təhlükəsiz şəkildə Bakının, Azərbaycanın digər abad şəhər və kəndlərini dolaşır, 22 ilin möcüzəsinə şahid olurlar.

Cəmi bir neçə yüz kilometr kənarda yerləşən ölkələrdə silah səslərinin, dağıntı və ah-nalənin tuğyan etdiyi, insanların çarəsiz şəkildə o diyardan bu diyara qaçdığı bu dövrdə Azərbaycanımızdakı bu sabitlik, sakitlik və inkişaf Heydər Əliyev dühasının nəticəsidir. Bu dahinin göstərdiyi alternativsiz yolla ümummilli liderimizin layiqli varisi İlham Əliyev bizi uğurla daha böyük zirvələrə doğru inamla aparır.

**Qüdrət SƏMƏDOV.**